# bu qanaxmadır, sadəcə sənin bildiyin heyz günlərinin müddətində namazı tərk et, (bu müddətdən) sonra isə qüsl al və namaz qıl

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, Fatimə bint Əbi Hubeyş Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) belə soruşdu: "Mən davamlı olaraq heyz oluram, (həmin müddətdə) namazı tərk edimmi? Cavab verdi: Xeyr, bu qanaxmadır, sadəcə sənin bildiyin heyz günlərinin müddətində namazı tərk et, (bu müddətdən) sonra isə qüsl al və namaz qıl."
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Fatimə bint Hubeyş Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdu və dedi: Məndən heyz qanı kəsilmir və heyz, ədəti günlərdən başqa dövrdə də davam edir, o zaman bunun hökmü heyzin hökmü kimidirmi və namazı tərk edimmi? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: Bu qanaxmadır və uşaqlıq yolunda qanaxmanın kəsilməsi nəticəsində yaranan patoloji qandır, heyz qanı deyil. Qanaxma xəstələliyindən əvvəl olduğu kimi, aylıq adətinə uyğun heyz müddəti gələrsə, namazı, orucu və qadına heyz zamanı qadağan olan digər işləri tərk et. Həmin müəyyən müddət bitdikdə, heyzdən təmizlənmiş olursan, qan yerini yu və natəmizliyi aradan qaldırmaq üçün kamil qüsl al, sonra namaz qıl.

https://sunnah.global/hadeeth/az/show/3029

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee